| | **Məsuliyyətli açıqlama siyasəti** | | |
|---|---|---|---|
| | **HAZIRLAYAN**<br>İnteqrasiya olunmuş idarəetmə üzrə təmsilçi | **TƏSDİQ EDƏN**<br>İdarə Heyətinin sədri | |
| **Qüvvəyə minmə tarixi:** 01.09.2023 | **Reviziya Tarixi:** - | **Reviziya nömrəsi:** 0 | **Səhifə** 0/1 |

Azərlotereya olaraq öz məhsullarımızı WLA-SCS: 2020 standartına və ISO 27001:2013 Məlumat təhlükəsizliyi idarəetmə sistemi standartına uyğun şəkildə dizayn edilməsini təmin edirik. Fərdi məlumatların yüksək səviyyədə qorunması üçün milli qanunvericilik və beynəlxalq standartların tələblərinə uyğun davranırıq.

Bu "Məsuliyyətli açıqlama siyasəti"ni hazırlamaqla biz sizi veb-saytlarımızda və ya xidmətlərimizdə mövcud ola biləcək zəifliklə bağlı məlumat verməyə cəsarətləndirmək istəyirik. Əgər Azərlotereyaya məxsus olan veb-saytlarda və ya Azərlotereyanın təqdim etdiyi xidmətlərdə zəiflik aşkar etdiyinizi düşünürsünüzsə, aşağıdakı imeylə yazmaqla bu barədə bizə məlumat verə bilərsiniz:

info@azerlotereya.com

Bu məlumatda aşağıdakılar öz əksini tapmalıdır:

- Zəifliyin aşkar edildiyi veb-sayt, İP və ya məhsul;
- Zəifliyin qısa təsviri;
- Zəifliyin aşkar edilməsi üçün atılmış addımlar;
- Aşkarladığınız zəifliyi bizə göstərmək üçün minimal datadan istifadə edin. Azərlotereya sistem və şəbəkələrinin fərdi məlumatlarına müdaxilə etməməyi tövsiyə edirik. Əks halda, etdikləriniz cinayət məsuliyyətinə səbəb ola bilər;
- Zəiflik barədə məlumat verərkən kommersiya sirrinin və fərdi məlumatların qorunmasına dair qanunvericiliyə riayət edin;
- Biz zəifliyi aradan qaldıranadək onun barəsində üçüncü şəxslərə məlumat verməyin;
- Zəifliyin aradan qaldırılması üsulları sizə məlumdursa, onları bizimlə də bölüşün.

Biz sizin verdiyiniz məlumatla nə edəcəyik?

Aşkarladığınız zəiflik barədə bizə xəbər vediyiniz üçün və məlumatların məxfiliyini qoruduğunuz üçün sizə təşəkkür edirik. Biz də öz növbəmizdə sizin fərdi məlumatlarınızı heç kimlə bölüşməyəcək və zəifliyi aradan qaldıran kimi sizə məlumat verəcəyik.